# mr.Seal Kapiler®




## Sement əsaslı, kapilyar su izolyasiya materialı.

Məhsul kodu: 30.20.010

### Məhsul haqqında

**mr.Seal Kapiler®** köhnə və yeni sement əsaslı səthlərdə, ya da beton tikililərdə səth sularına qarşı təsirli, müsbət və mənfi tərəfdən tətbiq edilə bilən kapilyar təsirli bir su izolyasiya materialıdır.

### İstifadə sahələri

- Təməl və pərdə su izolyasiyasında
- Su ambarlarında
- Zirzəmi divarlarında
- Tunellərdə
- Lift boşluqlarında
- İstinad divarlarında, keçidlərdə və liman larda

### Texniki göstəriciləri

| Material Tərkibi | Sement əsaslı, suda həll olmayan kristal qatqılı |
|---|---|
| Rəngi | Boz |
| Səth tempraturu | +5$^0$C+30$^0$C |
| İstifadə müddəti | 20 dəqiqə |

Yuxarıdakı qiymətlər +23$^0$C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### Üstünlükləri

- Asan hazırlanır və tətbiq olunur
- Fırça ilə tətbiq edilə bilər
- İşləmə müddəti uzundur
- mr.Seal Kapiler® əmələ gətirdiyi, suda həll olmayan kristallar ilə kapilyar boşluqları doldurur və su izolyasiyası təmin edir
- Betonu və təchizatı suyun korroziya edici təsirlərindən qoruyur

### İstifadə təlimatı

Səthin hazırlanması

Səth hazırlama sistemin keyfiyyəti üçün çox vacibdir. Səth toz, yağ, boya və qalıcı maddələrdən və s. yapışmanın və nüfüz etmənin qarşısını alıcı maddələrdən təmizlənməlidir. Səthdəki zəif sement məhlulu təbəqəsi də aşındırılaraq alınmalı, yüngül şəkildə çıxıntılandırılmalıdır. Səthdəki boşluqlar və qopmuş suvaqlar təmir edilməlidir. Tətbiq səthi bol su ilə isladılaraq suya doyurulmalı, lakin səthdə artıq su qalmamalıdır. Tətbiq zamanı material suyunu itirər və tutqun bir görünüş alarsa, səthin yetərincə isladılmadığını ya da sürətli quruduğunu göstərir. Belə olduqda, havanın isti olduğu yada materialın külək təsirində olduğu vəziyyətlərdə yalnız ilk qat üçün materialın qarışdırma suyu 10% artırıla bilər. Hər bir qat sürtülmədən öncə altdakı katın quruması gözlənilir. Qatlar bir-birinə əks istiqamətdə sürtülür.

### Hazırlanması

1 torba (20 kq) mr.Seal Kapiler®, 6 litr su ilə qarışdırımalıdır. Su mr.Seal Kapiler®-ə əlavə edərək qarışdırılmalıdır. Tərsinə bir əməliyyat edilməməli, 400-600 dövr/dəq- lik bir mikser ilə homogen bir görünüş əldə edilincəyə qədər qarışdırılmalıdır. 20 dəqiqə ərzində istifadə edilə biləcək qədər materialın qarışdırılmasına diqqət edin.

### Tədbiq etmə üsulu

mr.Seal Kapiler® məhlulu, əvvəlcədən isladılmış səthə fırça, ya da püskürtmə üsulu ilə 2 qat tədbiq edilir. Birinci qat suyunu tam itirmədən əvvəl və kifayət qədər sərtləşdikdən sonra 3-5 saat müddətində ikinci qat dik tərəfdən tədbiq edilir.

### Bərkimə

mr.Seal Kapiler® örtüyünün sürətli qurumasının qarşısı alınmalıdır. 5-7 gün müddətlə islaq

vəziyyətdə saxlanmalıdır. İsladılaraq və polietilen ilə örtülərək təsirli qoruma təmin edilməlidir. Bərkidici mayedən istifadə etmək uyğun deyildir. Su ambarları, mr.Seal Kapiler® tədbiq edildikdən 24 saat sonra doldurulmalıdır, çünki su təzyiqi altında kristalın əmələ gəlməsi surətlənir.

## Sərfiyyat

1-ci qat sərfiyyatı: 1 kq/m² toz məhsul
2-ci qat sərfiyyatı: 1 kq/m² toz məhsul

## Saxlama şərtləri

Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə saxlanmalıdır.

## Saxlama müddəti

Düzgün saxlama şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar xaricindəki və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: 20 kq ±2%**